


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 178 (21.588)**

*23 sentyabr 2016-cı il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


## Təhsil ocaqları üçün binalarda inşaat işləri davam etdirilir

***Bu ilin aprel ayından inşasına başlanan Tumbul kəndindəki məktəb binasında işlərin daha sürətlə aparılması bu təhsil ocağının yaxın vaxtlarda qapılarını müəllim və şagirdlərin üzünə açacağını deməyə əsas verir.***

Məktəb binasında əsas inşaat işləri başa çatdırılıb, çardaq hissə vurulub, fasadın və interyerin suvağı tamamlanıb. Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin kollektivi tərəfindən inşası aparılan binanın xaricində hazırda üzləmə işləri gedir, məktəbin ərazisi abadlaşdırılır, işıqlandırma sistemləri quraşdırılır. Binanın birinci mərtəbəsində kitabxana, fənn laboratoriyaları, idman zalı, hərbi hazırlıq sinfi, ikinci mərtəbədə siniflər, üçüncü mərtəbədə isə üç elektron lövhəli sinif, iki kompüter otağı, müəllimlər otağı, şahmat sinfi yerləşəcək.

Muxtar respublikamızda həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən ali təhsil müəssisələri də kənarda qalmayıb. Bu baxımdan cari ilin aprel ayından başlayaraq Naxçıvan Müəllimlər İnstitutunun binasında "Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi tərəfindən yenidənqurma işləri aparılır, bu ali təhsil ocağı üçün yeni tədris korpusu tikilir. Zirzəmi ilə birlikdə altı mərtəbədən ibarət olan tədris korpusunda hazırda suvaq işləri aparılır. İnstitutun yenidən qurulan korpusunun özülü möhkəmləndirilib, arakəsmələr hörülüb. Hazırda burada qapı və pəncərələrin salınmasına, çardaq hissənin qurulmasına hazırlıq işləri gedir.







Naxçıvan şəhərində yenidən qurulması artıq başa çatdırılmaqda olan təhsil müəssisələrindən biri də Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin binasıdır. Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin inşaatçıları tərəfindən hazırda pilləkənlər qurulur, fasad hissə üzlənir. İnşaat işlərinin sürətlə aparılması onu deməyə əsas verir ki, bina qısa müddətdə istifadəyə hazır olacaq.

Xatırladaq ki, bu gün Naxçıvan təhsili özünün inkişaf dövrünü yaşayır. Muxtar respublika rəhbərinin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğı sayəsində 1996-cı ildən ötən dövr ərzində Naxçıvanda 200-dən çox təhsil müəssisəsi üçün bina tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Əvvəlki illərdə olduğu kimi, 2016-cı ildə də tikinti-quruculuq işlərinin önündə təhsil quruculuğu dayanır. Muxtar respublikada 2016-cı ilin birinci yarısı ərzində 1806 şagird yerlik altı tam orta məktəb binası, bir peşə məktəbi istifadəyə verilib. Hazırda Naxçıvan Dövlət Texniki Kollecinin yeni binasının, Naxçıvan şəhərində 3 və 13 nömrəli, Şərur rayonunda Şərur şəhər 2 nömrəli, Çəmənli, Arbatan, Babək rayonunda Məzrə, Ordubad rayonunda Baş Dizə, Culfa rayonunda Gülüstan Şahbuz rayonunda Kolanı, Kəngərli rayonunda Şahtaxtı kənd tam orta məktəblərinin binalarının tikintisi və ya əsaslı şəkildə yenidən qurulması davam etdirilir.

**✍ Səbuhi HÜSEYNOV**

## Naxçıvanda daşınmaz əmlak və torpaq idarəçiliyi sahəsində işlər müasir tələblər əsasında qurulub

***Muxtar respublika iqtisadiyyatında müşahidə olunan davamlı inkişaf nəticəsində mülkiyyət münasibətlərində iştirak edən subyektlərin sayının artması daşınmaz əmlak və torpaq idarəçiliyi sahəsində yeni yanaşmalar tələb edir. Bu baxımdan işdə mütəşəkkilliyin təmin edilməsi və mütərəqqi metodların tətbiqi 2016-cı ilin avqust ayı ərzində Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi tərəfindən diqqət mərkəzində saxlanılmış, qarşıya qoyulmuş vəzifələrin icrası uğurla davam etdirilmişdir.***

Daşınmaz əmlakın hüquqi ekspertizası və reyestrin aparılması sahəsində görülən tədbirlər çərçivəsində 560 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Təsdiq olunmuş qrafik əsasında Şərur rayonunun Cəlilkənd və Xanlıqlar, Ordubad rayonunun Azadkənd və Gənzə, Şahbuz rayonunun Nursu, Babək rayonunun Məzrə, Culfa rayonunun Əbrəqunus, Kəngərli rayonunun Şahtaxtı kəndlərində vətəndaşlara səyyari xidmət göstərilmiş, 102 müraciətə baxılmışdır. Bu dövrdə 638 texniki sənədin parametrləri və həmin sənədlər haqqında digər məlumatlar Milli Qeydiyyat Sisteminə daxil edilmiş, əmlakların real bazar münasibətlərinə uyğun qiymətləndirilməsi ilə əlaqədar daxil olmuş müraciətlərə əsasən 5 əmlak qiymətləndirilmiş, 50 daşınmaz əmlak obyektinə ünvan verilmiş, 74 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınmışdır.

Komitədə informasiya texnologiyalarının tətbiqi və məlumat bazasının təkmilləşdirilməsi sahəsində ardıcıl tədbirlər görülür. Mövcud informasiya sistemlərinin və Milli Qeydiyyat Sisteminin işlək vəziyyətdə saxlanılmasına mütəmadi nəzarət olunmuş, hər həftənin sonunda məlumat bazası elektron yaddaş qurğularına köçürülərək arxivləşdirilmiş, vətəndaşlardan qəbul edilmiş 486 ərizə Milli Qeydiyyat Sisteminə daxil edilmişdir. Bundan başqa, Şərur rayonunda "Daşınmaz əmlakın qeydiyyatı, torpaqlardan səmərəli istifadə və mühafizəsinin gücləndirilməsi" mövzusunda tədbir keçirilmiş, yerli icra nümayəndələrinə və bələdiyyə sədrlərinə daşınmaz əmlakın kadastrı və qeydiyyatı ilə bağlı qanunvericiliyin tələbləri, torpaqlardan qanunsuz istifadə hallarının aradan qaldırılması və mühafizəsi barədə ətraflı məlumat verilmiş, maarifləndirici broşürlər paylanmışdır.

Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu tərəfindən avqust ayında Şərur rayonunun Aşağı Yaycı, Axaməd və Axura bələdiyyələrinə aid sərhəd xəritələri və yerquruluşu materialları elektron variantda işlənmiş, Culfa rayon inzibati ərazi vahidinin tərkibinə daxil olan Culfa şəhəri, Bənəniyar, Camaldın və Dizə bələdiyyələrinin mövcud mülkiyyət növləri üzrə torpaq sahələri ortofotoplana əsasən dəqiqləşdirilmiş və xəritələri hazırlanmışdır. "Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar atlası"nın hazırlanması ilə əlaqədar işlər davam etdirilmişdir. Həmçinin "Gəmiqaya" Tarix-Bədii Qoruğunun yerquruluşu planı hazırlanaraq Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə, Şahbuz, Ordubad, Culfa, Kəngərli və Şərur rayonlarının əraziləri üzrə yay otlaq sahələrinin yerləşdiyi ərazilərin planı hazırlanaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinə, Kəngərli rayonunun Çalxanqala və Böyükdüz kəndlərinin həyətyanı torpaq sahələrinin yerquruluşu planı hazırlanaraq komitənin Kəngərli Rayon İdarəsinə təhvil verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvanda əhaliyə nümunəvi nəqliyyat xidməti göstərilir

*Muxtar respublikada nəqliyyat xidmətinin təşkili diqqətdə saxlanılır, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi, xidmətin yüksək səviyyədə qurulması və səmərəliliyinin artırılması üçün ardıcıl tədbirlər görülür.*

Avqust ayında Naxçıvan şəhərində sərnişindaşımanı yerinə yetirən sahibkarların və sürücülərin iştirakı ilə seminar-müşavirə keçirilmiş, sərnişindaşıma xidmətinin səviyyəsinin qaldırılması üçün müzakirələr aparılmış, ucqar dağ və sərhəd kəndlərinə işləyən marşrut avtobusları texniki baxışdan keçirilmişdir.

Ötən ay Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə Naxçıvandan Bakıya 113 reys edilərək 4642, əks istiqamətdə isə 4160 sərnişin daşınmışdır. Bu dövrdə Naxçıvan-Batumi marşrutu da öz fəaliyyətini davam etdirmişdir.

Nazirliyin Reyd komissiyası Nəqliyyat müfəttişliyi və təhlükəsizlik şöbəsi ilə birlikdə müxtəlif günlərdə reydlər keçirmiş, sərnişindaşıma ilə məşğul olan avtonəqliyyat vasitələrinin təmizliyinə, sürücülərin geyim formasına, şəhərdaxili və rayonlararası marşrutlarda hərəkət qrafikinə nəzarəti artırmışdır. Bir sözlə, muxtar respublika daxilində sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, rayon mərkəzləri və kəndlərin hamısı marşrutla təmin edilmiş, sərhəd kəndlərinə və ucqar dağ kəndlərinə işləyən marşrut avtobuslarının fəaliyyəti xüsusi nəzarətdə saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Dəmir yolu təsərrüfatının inkişafına diqqət artırılır

*Naxçıvan Muxtar Respublikasında dəmir yolundan istifadə sahəsində ardıcıl tədbirlər görülür. Dəmir yolu infrastrukturunun müasirləşdirilməsi sahəsində görülən işlərin nəticəsidir ki, avqust ayında Yük və Sərnişin Daşımaları İdarəsi tərəfindən muxtar respublika ərazisində 15 min 820 sərnişin və ayrı-ayrı tikinti təşkilatlarının ünvanına 3 min 540 ton müxtəlif təyinatlı yük daşınmışdır.*

Culfa Lokomotiv Deposunda lokomotivlər 4 dəfə texniki baxışdan keçirilmiş, 3 ədəd lokomotiv cari təmir edilmişdir. Sərnişinlərin rahat gediş-gəlişlərini təmin etmək üçün istismarda olan sərnişin vaqonlarında təmir işləri həyata keçirilmiş və 1 ədəd sərnişin vaqonunda istilik sistemi bərpa olunmuşdur. Bundan başqa, İnfrastruktur İdarəsinin xidməti ərazisində baş və stansiya yollarına baxış keçirilmiş, xidməti ərazidəki bütün keçidlər, yol yatağı, yoldəyişən və digər qurğular yoxlanılaraq çatışmazlıqlar aradan qaldırılmış, 396 ədəd yararsız ağac şpal təzə ağac şpallarla əvəz edilmişdir.

Daşımaların səmərəli təşkili məqsədilə Şərur stansiyasında yararsız vəziyyətdə olan yükləmə-boşaltma yolunun 360 paqonometr hissəsi tamamilə sökülmüşdür. Hazırda yeni yolun çəkilişi aparılır. Texniki İnzibati Binaların Təmir-Tikinti İdarəsi tərəfindən avqust ayında Ordubad dəmiryol sərnişin vağzalı, Ordubad Yol Sahəsinin inzibati binasında və İnfrastruktur İdarəsinin Ordubad Sahəsindəki 4 saylı yol məntəqəsi binasında yenidənqurma, Ordubad İdarəetmə Mərkəzi və Yol Sahəsinin yardımçı binalarında isə əsaslı təmir işləri davam etdirilmişdir.

***"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin mətbuat xidməti***

## Payız mövsümündə muxtar respublikada 200 hektardan çox ərazidə yaşıllıqlar salınacaq



Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin əsas istiqamətlərindən biri də ətraf mühitin qorunması, ekoloji problemlərin həll edilməsi və əlverişli ekoloji mühitin yaradılmasından ibarətdir.

Müxtəlif təbii amillər, həmçinin muxtar respublikada kənd təsərrüfatının, sənaye sahələrinin inkişafı yaşıllıqların əhəmiyyətini daha da artırır.

Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, cari ilin ötən dövründə muxtar respublika ərazisində 246,2 hektar sahədə meyvə bağları salınıb, əkinbərpa işləri həyata keçirilib. Payız mövsümündə isə 200 hektardan artıq ərazidə yeni meyvə bağlarının və yaşıllıq zolaqlarının salınması nəzərdə tutulub. Məlumatda bildirilir ki, bu il ilk dəfə olaraq yarğanlaşmış ərazilərdə, o cümlədən Kəngərli rayonunun Böyükdüz ərazisində və Şərur rayonunun Dizə kəndinə aid Arpaçay vadisində relyefə uyğun olaraq əkin işləri aparılacaq. Bundan əlavə, muxtar respublikada üzümçülüyün inkişaf etdirilməsi məqsədilə Sədərək rayonunun Heydərabad qəsəbəsi yaxınlığında 1 hektar sahədə üzüm, yüksək dağlıq ərazilərdə, xüsusilə Culfa, Şahbuz və Ordubad rayonlarında yeni meyvə bağlarının salınması üçün hazırlıq işləri görülür. Eyni zamanda 2016-cı ilin yaz mövsümündə olduğu kimi, payız mövsümündə də tut tinglərindən ibarət əkin işlərinin kütləviliyini artırmaq məqsədilə sxem planlar tərtib olunub. Bu istiqamətdə həyata keçirilən tədbirlər muxtar respublikada baramaçılığın inkişafına böyük töhfə verəcək.

**✍ Səbuhi HƏSƏNOV**

# Doğma yurda məhəbbətlə...

## *Görülmüş işlər kəndlərimizin inkişafından xəbər verir*

**1930-cu ildən üzübəri illərin, qərinələrin yol yoldaşlığında böyük çətinliklərlə üzləşən, lakin torpağa bağlılığını qoruyan insanların yaşadığı Şahbuz rayonu bu gün başdan-başa dövlət qayğısı ilə əhatə olunub. Rayonun bütün yaşayış məntəqələrində kompleks quruculuq işləri görülüb. Odur ki, bölgənin füsunkarlığı daha da artıb. Bu səbəbdəndir ki, Şahbuza gələn qonaq burdan getmək istəmir.**

**Beləcə, sosial-iqtisadi inkişafın işığında bərq vuran rayon mərkəzindən keçib Ayrınc kəndinə üz tuturuq. Məqsədimiz bu istiqamətdə yerləşən kəndlərimiz barədə oxuculara ətraflı məlumat verməkdir.**

### *Ayrınc kəndi görkəmi ilə göz oxşayır*

Kəndə gedən yolun sol tərəfində ağacların altında, göy çəmənlikdə dayanan maşınlar, çay kənarında istirahət edən qonaqlar diqqətimizi çəkir. Onlardan birinin qollarını açıb sanki havanımı, təbiətimi qucaqlamaq istəyi nəzərimizdən qaçmır və digərinə dediyi sözləri də ötəri eşidirik: "Cənnətdir e, cənnət".

Geniş, asfalt yolla yolumuza davam edirik. Kəndin girəcəyində, yolun solunda inşa olunmuş ikimərtəbəli məktəb binası görünüşü ilə göz oxşayır. 2005-ci ilin dekabrında ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı ilə həyata vəsiqə alan kənd tam orta məktəbinə daxil oluruq. Öyrənirik ki, 110 şagird yerlik məktəbdə 2013-cü ildə yenidənqurma işləri aparılıb. Məktəbdə 2-si elektron lövhəli olmaqla, 11 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə və kompüter otağı vardır. Yaradılan şəraitin nəticəsidir ki, məktəb ilbəil yaxşı nəticələr göstərir. 2015-2016-cı dərs ilində təhsil ocağının məzunlarının hamısı tələbə adını qazanıb.

Kompleks quruculuq tədbirləri çərçivəsində Ayrıncda inşa olunmuş kənd mərkəzinin binası sakinlərin işini xeyli asanlaşdırıb. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Xaliq Abdullayev belə diqqət və qayğıya görə sakinlərə yaxşı xidmət göstərə bildiklərini söyləyir. Kənd mərkəzində rabitə evi, polis sahə, baytarlıq və feldşer-mama məntəqələri, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, kitabxana, mədəniyyət evi fəaliyyət göstərir. Kənd mərkəzinin birinci mərtəbəsində feldşer-mama məntəqəsi üçün otaqların ayrılması sakinlərə böyük qayğıdır. Kənddə xidmət mərkəzi də inşa olunub ki, artıq burda hər kəsin keyfiyyətli yerli ərzaq məhsulları almaları üçün lazımi şərait yaradılıb. Mərkəzdə ərzaq və təsərrüfat mallarının satışı üçün 2 mağaza, ət satışı yeri, bərbərxana və qadın gözəllik salonu yaradılıb, 5 nəfər daimi işlə təmin olunub.

Qeyd edək ki, ayrınclıların əsas məşğuliyyəti əkinçilikdir. Çünki geniş və münbit torpaqlara malikdirlər. Torpaqların 57 hektarı dövlət, 2149 hektarı bələdiyyə, 113 hektarı xüsusi mülkiyyətdədir. Kükü çayından götürdükləri su ilə əkin sahələrini suvara bildiklərindən hər il bol məhsul götürürlər. Kənd sakinlərinin içməli su sarıdan da problemləri yoxdur.

Kənd sakini Sevindik Cəfərov deyir ki, 1969-cu ildən burada yaşayıram. Çəkdiyimiz əziyyətləri unutmamışıq. Məktəbimiz yararsız hala düşmüşdü, yol yox idi, bir sənəd lazım olanda gedirdik keçmiş Qarababa kəndinə. Amma bu gün kəndimizin öz icra nümayəndəliyi var, gözəl binada yerləşib. Yaraşıqlı məktəbimiz var. Bizə göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizə minnətdarlığımızı bildiririk.

### *Kəndimizi tanımadım*

Deyirlər, Vətən doğulduğun evdən, sonra küçədən, kəndindən başlayır. Mənim də ilk Vətən anlayışım Qızıl Qışlaqdan başlayıb. Min illərdir, əzəmətlə dayanan Sarı Güney dağının dərələrindən, kəndi əhatələyən Ağ düz, Qoralıq, Təmrəz dağlarının, Atlar bulağı, Dəvəuçan, Qaraqaya, Həsənalı yurdu, Nəbi bulağı adlanan təpələrin ətəyindən axan şəlalələrini, buz bulaqlarını və su içindən baş qaldıran yarpızlarını, min rəngə çalan gül-çiçəyini, bənövşəsini, nərgizini, minbir dərdin dərmanı olan müalicəvi bitkilərini çox sevmişəm. Elə füsunkar təbiətindəndir ki, yay aylarında Qızıl Qışlağın qoynu qonaqlı-qaralı olub. Həyət-baca, bağ-bağça daim yaşıllıq içindədir. 2013-cü ildə kənddə aparılan kompleks quruculuq tədbirləri isə Qızıl Qışlağa xüsusi yaraşıq verib, sakinləri doğma ocağa daha sıx tellərlə bağlayıb.


Ayrınc

…Kənd yollarının keçmişi gözlərim önündə canlanır. Dağ yolları ilə kəndə getmək həm vaxt aparırdı, həm də əzab-əziyyət idi. Kəndə çatacatda maşının pəncərəsindən baxanda adamın canına üşütmə düşürdü ki, birdən dərəyə yuvarlanar. Çünki dağlardan gələn sellər getdikcə yolları yuyur, qış aylarında isə lap bərbad olurdu. Qar çox yağanda avtobus kəndin aşağısında qalır, insanlar qalan yolu piyada qət edirdilər. Hətta Küküyə gedənlər belə, bu kəndə piyada getmək məcburiyyətində qalırdılar. İndi geniş, rahat yola baxdıqca qəlbən rahatlıq tapırsan.

Kənd məscidinin qarşısında dayanıram. Sovet dövründə kolxoz anbarı edilən məscid təmir olunub, qapıları hər kəsin üzünə açılıb. Elə burada tikilən xidmət mərkəzi də sakinlərə böyük töhfədir.

Yolumu kəndin yuxarısından salıram. Pilləkənlərlə hündürlüyə qalxıram. Burda iki bina ucaldılıb. Yaraşıqlı məktəb binasına və kənd mərkəzinə baxıram. Heyrətlənmirəm. Çünki bu gün belə yaraşıqlı, gözəl tikililər muxtar respublikanın bütün rayon, qəsəbə və kəndlərində göz oxşayır. Zirzəmi ilə birlikdə üçmərtəbəli təhsil ocağına baxıram. Uçuq-sökük, birmərtəbəli binada qış aylarında soyuqdan çəkdiyimiz əziyyəti xatırlayıram. İndi müasir, gözəl binaya, yaradılan hərtərəfli şəraitə baxanda qibtə edirəm bugünkü şagirdlərə. Bu il məktəbi bitirən 3 məzundan birinin 598 balla ali məktəbə qəbul olunması təhsilə göstərilən qayğının nəticəsidir.

Elə ikimərtəbəli kənd mərkəzi də bu qayğının bir hissəsidir. Kənd sakinləri Abdulla Quliyev, Əli Həziyev razılıq edərək bildirirlər ki, əvvəlcə köhnə, yararsız binada fəaliyyət göstərmək həm işçilər, həm də sakinlər üçün çətin idi. Bu gün isə müasir binada rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, mədəniyyət evi, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, bələdiyyə fəaliyyət göstərir. Həkim ambulatoriyasına da burada insanların sağlamlığına yaxşı xidmət imkanı yaradılıb. Ambulatoriya üçün 5 otaq ayrılıb, lazımi tibbi avadanlıqlar qoyulub.

Görülən işlərə baxdıqca Ali Məclis Sədrinin açılış mərasimində dediyi sözləri xatırlayıram: ***"Aparılan kompleks quruculuq işləri Qızıl Qışlaq kəndini muxtar respublikanın abad yaşayış məntəqələri sırasına daxil etmişdir. Bu, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf xəttinin bir kəndin timsalında nümunəsidir. Kəndlərdə aparılan quruculuq işləri, ilk növbədə, insanların rahatlığına hesablanmışdır ".***


Qızıl Qışlaq

Qürur duyuram ki, qonaqpərvər, səmimi insanları olan kəndimin hüsnünə yeni gözəllik naxışları vurulub. Bu naxışlar həmkəndlilərimin çöhrələrinə təbəssüm bəxş edib. Kənd sakinləri ilə sağollaşıb yol alırıq Küküyə…

### *Kükündə də kompleks quruculuq işləri aparılıb*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Sosial sahəyə qoyulan vəsait... insan kapitalı kimi geri qayıdır. Xəstəxana, yol çəkilişi, digər ictimai yerlərin yaradılması, məktəb tikintisi, su xətləri, qazlaşdırma – bütün bu layihələr bir daha onu göstərir ki, bizim dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır".***

Hər tərəfdən dağlarla əhatə olunmuş, qədim tarixə malik Kükündə aparılan kompleks quruculuq tədbirləri nəticəsində insanların rahatlığı təmin olunub, kənd bu gün müasirliyin ağuşunda gələcəyə doğru addımlayır. Kənddə 1671 sakin yaşayır. Əhalinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıqdır. Kükü həm də gözəl alma bağları ilə məşhurdur. Bağlarda qışqızılı, belflor, palmet, banan, qarpız, göy alma kimi növlər yetişdirilir və alıcılar tərəfindən də həvəslə alınır. Kəndin səfalı təbiəti insanların dolanışığı üçün əlverişlidir. Zəhmətkeş qadınlar dağların ətəyində, çəmənliklərdə bitən ələyəz, əvəlik, diyçə kimi pencərlərdən yığıb hörüb qurudur, qışda satıb yaxşı qazanc götürürlər. Üstəlik, dərman otları yığıb satan da az deyil. Dərəboğazı səmtində Gur bulaqdan su içib şaxələnən baldırğanlar da kənd sakinlərinə az xeyir vermir. Dağlarının ətəyindən qaynayıb üzə çıxan Xan bulaq, Qırxbulaq, Südlü bulaq, Pünhan bulaq, Qiblə bulaq, Səfərbəy bulağı və daha neçə-neçə belə sərvətə malik Kükü "Bulaqlar kəndi" kimi də tanınıb.

Kəndin yaşlı sakinləri – 1910-cu il təvəllüdlü Bəyim Əliyeva və 94 yaşlı Əsəd Axundov deyir ki, Kükündə uzunömürlü insanlar çoxdur. Bunun da səbəbi kəndin havası, təbiəti, bir də insanlara göstərilən qayğıdır, yaxşı gün-güzərandır.

Üç il bundan öncə kənddə istifadəyə verilmiş yeni sosial obyektlər çərçivəsində avtomobil yolunun yenidən qurulması sakinlərə sevinc bəxş edib. Çünki daha əvvəlki çala-çuxur yollardan əsər-əlamət qalmayıb. 16 kilometr uzunluğundakı avtomobil yoluna 30 selötürücü, 97 suötürücü qoyulub, 9 körpü tikilib.

Kənddə müasir məktəb binasının istifadəyə verilməsi muxtar respublikamızda təhsilin inkişafı sahəsində görülən işlərin məntiqi davamıdır.

Qeyd edək ki, bu kənd əzəldən elmə marağı ilə fərqlənib. Bu barədə məktəbin müəllimi Yunis Quliyev deyir ki, Kükü məktəbi 1 akademikin, 7 elmlər doktorunun, 20 fəlsəfə doktorunun ilk təhsil aldığı ünvandır. 2008-ci ildə məktəbin məzunu Aygün Salahlı ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərərək Prezident təqaüdünə layiq görülüb. Bu il məktəbdən 3 nəfər ali məktəblərə, 1 nəfər texnikuma daxil olub. Ali məktəblərə qəbul olunanlardan 2-si 500-700 intervalında bal toplayıb ki, onlardan qızıl medal alan Səfa Rzayeva 672 balla ona göstərilən etimadı doğruldub.


Kükü

Yenilik, müasirlik həm də rahat yaşayış, firavan həyat deməkdir. Bu gün Kükü kəndində buna nail olunub, sakinlərin rifah halının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər görülüb. Bunun nəticəsidir ki, kənddə yeni ikimərtəbəli kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası tikilib. Əhalinin əksər hissəsi kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olduğundan verilən kreditlərdən də yararlanır, təsərrüfatlarını genişləndirir.

Sakinlərin gündəlik tələbatını ödəyən xidmət mərkəzində POS-terminalın quraşdırılması da insanların rahatlığına hesablanıb. Kənd sakinlərinin elektrik enerjisindən, təbii qazdan, rabitə xidmətindən fasiləsiz istifadə etmələri, muxtar respublikamızda səhiyyə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində kənddəki tibb ocağının əhali sayı nəzərə alınaraq lazımi ştatlarla təmin edilməsi, müasir səhiyyə avadanlıqları quraşdırılması da əhalinin məskunlaşmasına xidmət edən amillərdəndir.

Bəli, bu gün dağlar qoynunda yerləşən Kükü kəndi təkcə rəngarəng təbiəti ilə deyil, həm də həyata keçirilən genişmiqyaslı quruculuq işləri ilə diqqət çəkir. Bu isə həm də kənddə turizmin inkişafına stimuldur.

### *Güney Qışlaq kəndi də müasir yaşayış məntəqələrindəndir*

Güney Qışlaq kəndinə də muxtar respublikanın hər yerində həyata keçirilən genişmiqyaslı quruculuq, abadlıq işlərindən pay düşüb. Bu kənd ucu şiş dağlarla əhatələnib. Geniş otlaqları, təbii bulaqları, axar çayları bu yurd yerini gözəlləşdirən amillərdir. Güney Qışlağın zəhmət adamları bağ salmaqda, müxtəlif meyvə tingləri becərməkdə səriştəlidirlər.

Qeyd etdiyimiz kimi, bu kənddə də hərtərəfli quruculuq işləri aparılıb. Belə ki, üç il əvvəl kənd yolu yenidən qurulub. Kənd yollarının bir hissəsində isə təmir işi davam etdirilir. Kəndin girəcəyində dağlardan gələn sel sularının sıradan çıxardığı yol genişləndirilib, yola verilən torpaq bərkidilib və yanındakı dağ tərəf maili şəkildə sıxlaşdırılaraq asfalt işinə hazırlıq görülür.

Bu gün ölkəmizdə bütün yaşayış məntəqələrinin inkişafına, infrastrukturun yenilənməsinə xüsusi diqqət göstərilir. Güney Qışlağa çəkilən yol, kənddə tikilən yeni sosial obyektlər, əvvəlki illərin quruculuq töhfəsi olan yeni məktəb binası ölkəmizin inkişafını kəndlərimizin timsalında da aydın göstərir, həmçinin kəndlə şəhər arasındakı fərqin aradan qaldırılması istiqamətində atılan addım kimi dəyərləndirilir.

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Hüseyn Kərimov bu yaşayış məntəqəsində yeni sosial obyektlərin istifadəyə verilməsini muxtar respublikada insanların rahatlığı sahəsində görülən işlərin ifadəsi olduğunu bildirir. Deyir ki, yaradılan şəraitdə sakinlərə daha yaxşı xidmət etmək imkanı qazanıblar. Bütün bunlar eyni zamanda kənddə əhalinin məskunlaşmasına, onların rifahının yüksəlməsinə səbəb olub. Çünki kəndlərdə dövlət qurumlarının fəaliyyətinin yaxşılaşdırılması və əhalinin sosial problemlərinin həlli inkişafın başlıca şərtidir. 2260 metr məsafədən çəkilən içməli su xətti onların bu problemini də həll edib.

Bəli, kəndin səfalı təbiəti, göstərilən dövlət qayğısı yay aylarında buraya gələnlərin sayını artırır. Yayda kəndə 50 nəfər istirahətə gəlib. 95 yaşlı kənd sakini Hüseyn Hümbətov bildirir ki, ömür sürdüyüm bu illərdə bugünkü kimi rahatlıq, qayğı görməmişik. Sağ olsun hökumətimizi. Rahat yolumuz, məktəbimiz, qazımız, işığımız, gözəl dükanımız var. Pensiyamızı da vaxtında alır, alış-verişimizi edirik. Kənd camaatı həm də dövlətdən ona görə razıdır ki, sakitlikdir.

Əli ilə qarşı dağları göstərərək deyir: – Bu dağlar var-dövlətdir. Məşədikərim yurdu, Koladəyi yaylağı, Səngər yaylağı doludu ələyəz, əvəlik, çaşır, sobu, baldırğan, həmərsin, dərman otları ilə. Camaat yayda obaya gedər, elə bunlardan da yığar, aparıb satıb başqa ehtiyaclarını ödəyərdi. Amma nankor ermənilər o yerləri gülləbaran edirdilər. Ona görə adamların bunlardan da əli çıxmışdı. İndi isə əsgərlərimiz düşmənin gözünü tökər bir addım bu yana qoymaq istəsələr. Odur ki, camaat da rahatdır.

*Kəndləri gəzib qayıdarkən öz-özümə düşünürdüm. Kəndlərimizə göstərilən diqqət və qayğı doğma yurd yerlərimizin təbii gözəlliklərinə əlavə çalarlar qatmaqla yanaşı, insanların öz ata-baba torpaqlarında məskunlaşmasını təmin edib, onların qurub-yaratmaq əzmini daha da yüksəldib.*

**Hafizə ƏLİYEVA**



# Əlincəyə gedən yol

## Üçüncü yazı

***Müqəddəs ocaqdan içimdəki qəribə duyğularla ayrılıram. Əslində mən buna ayrılmaq deməzdim. Çünki orada keçirdiyim hisslər, hətta orada içdiyim çayın özü belə, mənim üçün tamam başqa bir dünyanın nişanələri idi. O dünyanın adını bu günə qədər də tapa bilməmişəm. Heç tapmağa da daha cəhd göstərmirəm. Çünki müqəddəsləri və müqəddəsliyi öz mərtəbəsində saxlamaq, üstəlik ona yalnız və yalnız iman gətirmək zənnimcə, daha doğru qərardı. Bax elə bu məntiqlə də aldığım müxtəlif dərman bitkilərini özümlə götürüb maşına əyləşirəm. Sürücü mühərriki işə salır və magistrala doğru maşını istiqamətləndirir:***

– Müəllim, indi yolumuz haradı? – deyə soruşur.

Mən içərisində olduğum duyğulardan ayrılmadan onu cavablandırıram:

– Əlincə qalasına!

Sanki cavabımı əvvəlcədən dəqiq bilən sürücü söylədiklərimə adi bir şəkildə yanaşaraq sözümün ardını tamamladı:

– Bəlkə əvvəl-əvvəl bir Nəiminin məqbərəsini ziyarət edək?

Onun söylədikləri dərhal diqqətimi çəkdi və bir az təəccüb qarışıq şəkildə suala sualla cavab verirəm:

– Onun məqbərəsi hardadı ki? Mənim bundan heç xəbərim yoxdu.

Sürücü gülümsəyir. Onun bu təbəssümündə bir qınaq da var. Haqlıdı. Ona görə başımı aşağı salıram və “dediyin kimi olsun” – söyləyib razılığımı bildirirəm. Amma görünür belə tez razılaşmağım sürücünün ürəyincə olmur. Ona görə də bircə kəlmə söyləyirəm:

– Baxarıq!

Maşın sürətlə irəliləyir. Biz bir-birindən abad kəndlərdən keçib gedirik. İnanın ki, hərdən mənə elə gəlir ki, bu mənzərə reallıq deyil. Elə bil rəssam işidi və yaxud hansısa bir maketlərdi gətirib yerləşdiriblər. Xüsusilə məktəblər, inzibati binalar. Mən Azərbaycanın əksər bölgələrində, hətta əksər kəndlərində də olmuşam. Amma Naxçıvanda təhsil müəssisələrinə göstərilən diqqət və qayğını, tam səmimiyyətimlə etiraf edim ki, heç yerdə görməmişəm. Dərs ili ərəfəsində bu müqəddəs torpağı gəzib-dolaşarkən elə maraq xatirinə bir neçə məktəb binasının həyətinə daxil oldum. Kənardan gözoxşayan səliqə-sahmanın içəridəki tamlığı məni heyrətə gətirdi. Sinif otaqları da, məktəb partasından tutmuş yazı taxtasına qədər hər şey müasir, hər şey yerində. Hələ həyətlərdəki adamın üzünə gülən yaşıllıq, gül-çiçək… Bütün bunları balalarımız üçün yaratmışdılar. Özü də böyük sevgiylə, böyük ürəklə. Hətta mən bir müqayisə aparmaq istədim. Kəndlərin böyük əksəriyyətində çox yüksək zövqlə tikilmiş əsl sənət nümunəsi olan məscidlər, minarələr var idi. Elə məktəblər də onunla bərabər bir səviyyədə inşa olunmuşdu. Hətta kəndlərin birində düz yolun kənarında kitabxana var idi. Təəssüf ki, iş gününün sonu olduğundan mən bu yaraşıqlı binanın daxilini görə bilmədim. Amma onun xarici görkəmi öz-özlüyündə artıq hər şeyi deyirdi. Mən Əlincəyə doğru gedərkən keçdiyim kəndlərdən birində sürücüdən xahiş etdim ki, maşını əyləsin, marketdən su alaq. O da xahişimi nəzərə aldı. Mən birdən kəndin adı yazılmış lövhəni gördüm. Xatırladım ki, bu kənd, yəni Çeşməbasar Azərbaycanın Ağsaqqallar Şurasının sədri, çox hörmətli millət vəkilimiz Fəttah Heydərovun kəndidi. Torpağını, kəndini, yurd-yuvasını sevən hər kəs əgər içində bir vətəndaş yanğısı, çiynindəki yükün mahiyyətini qiymətləndirmək bacarığı varsa, onda Azərbaycan doğrudan-doğruya cənnət olar. Elə yeri gəlmişkən, bəlkə də, xalq şairi Süleyman Rüstəm sağ olsaydı, mənim Naxçıvanda gördüklərimi seyr edib, yeni bir şeir də yazardı və o şeirin sonunda mütləq deyərdi ki:

*– CƏNNƏTİN ÖZÜNÜ GÖRMƏK İSTƏYƏN NAXÇIVANA GƏLSİN!!!*

Biz irəlilədikcə diqqətimi daha bir məqam özünə çəkir. O da yol kənarında salınmış bağlar, yaşıllıqlardı. Təbii ki, Azərbaycan yaşıllıqla zəngin bir məmləkətdi. Lakin Naxçıvanda iqlim şəraiti fərqli olduğundan burda ağsaqqallar, rəhbərlər, yəni bu yerin, bu torpağın dilini bilənlər yaşıllığı da ona uyğun şəkildə becərirlər, ərazisini artırırlar. Bunu elə-belə demirəm, gözlərimlə gördüm ki, Naxçıvanda yol kənarlarında Azərbaycanın bir çox bölgələrindən fərqli olaraq, əsasən, meyvə ağacları əkilib, meyvə bağları salınıb. Bu da həm yaşıllıq, gözəllik, həm oksigen, həm də meyvə bolluğu deməkdir. Mənim marağımı hiss edən sürücü həmin o əkilmiş iydə ağaclarından meyvə toplayan uşaqların




yanında maşını saxladı. Düşdüm. Onlarla görüşdüm. Nə qədər diqqət yetirsəm də, o uşaqlardan hansısa birinin ağacın kiçik bir budağını qırdığını görmədim. Səliqəylə ciblərinə meyvə yığırdılar. Mən də onlara qoşuldum və Naxçıvanın doğrudan-doğruya ləziz nemətlərindən olan həmin o iydədən sürücünün verdiyi sellofan torbaya bir xeyli yığdım. Amma onu da etiraf edim ki, iydə yığmaqdan ləzzət alırdım. Amma uşaqların gözütoxluğu məni çəkindirdi. Yoxsa əlimdəki torbanı dolduracaqdım…

Bəli, biz irəliləyirik. Rahat yolumuz getdikcə üzü dağlara tərəf istiqamətlənir. Və bir azdan qarşıda maşın karvanı görürəm. Maşınlar yolun sağ tərəfində həm sırayla, həm də ordakı meydançada səliqəli bir şəkildə dayanıb. Xeyli adam var. Sürücüyə baxıram. O yenə özünə məxsus şəkildə:

– Əlincə muzeyidi. Qalaya gələnlər öncə bu muzeylə tanış olurlar. Sonra kimin dizində güc varsa, qalxır üzü qalaya tərəf…

Yenə açığını deyim ki, sürücünün bu şərti məndə bir balaca şübhə yeri yaratdı. Havanın temperaturunun 30 dərəcədən yuxarı olduğu bir vaxtda, necə deyərlər, günün duran çağında bu qədər adamın muzeyə gəlməsi, qalaya çıxması o qədər də inandırıcı görünmür. Necə deyərlər, səbrimi bir təhər cilovlayıb gözləyirəm. Görək sürücünün dediyi nə qədər həqiqətdi?..

Maşınlar dayandığı məkana çatırıq. Həqiqətən, yolun sağında çox yaraşıqlı, müasir tələblərə cavab verən, üstəlik həm də Əlincə qalasının adına layiq ola biləcək muzey inşa olunub. Biz də muzeyə yaxınlaşırıq. Giriş qapısının önündə dayanmış xanım bizə:

– Xoş gəldiniz! – deyir. Yəqin siz də muzeyin içərisində qonaqlarla gəlmisiniz. Buyurun keçin!

Mən ona təşəkkür edib içəri keçirəm. Amma özümü də qınayıram ki, gərək Bakıdan gəldiyimi, muzeylə tanış olan qonaqlara aidiyyətim olmadığını söyləyəydim. Amma artıq gecdi. Muzeydən çıxanda səhvimi düzəldərəm… Muzeyin daxilində xeyli adam var. Bir nəfər, daha doğrusu, muzeyin əməkdaşı olan cavan bir oğlan qonaqlara bilgi verir. Yəni muzeyin içərisində olan əşyalardan, onların tarixindən, harda, nə vaxt tapılmasından danışır. Doğrusu, mən bu əşyalarla bağlı müəyyən bilgiyə malikəm. Bunun da səbəbkarı xoş münasibətdə olduğum və uğurlarını izlədiyim arxeoloq Vəli Baxşəliyevdi. AMEA-nın müxbir üzvü olan Vəli Baxşəliyev Naxçıvan tarixinin, arxeologiyasının öyrənilməsi, araşdırılması istiqamətində xeyli işlər görüb və görməkdə də davam edir. Onun elmi araşdırmalarında bu muzeydə nümayiş etdirilən müəyyən əşyaların da adına rast gəlmişəm. Ona görə adını eşitdiklərimi indi görmək məndə əlavə bir xoş təəssürat yaradır. Amma bunu da mütləq yazmalıyam ki, muzeyin daxilindəki qonaqlar onların sırasına qatılmış, “çağırılmamış qonağa”, yəni bizə qəribə bir nəzərlə baxırdılar.

**Əbülfət MƏDƏTOĞLU**
*Əməkdar jurnalist, şair, publisist*
*“Ədalət” qəzeti, 21 sentyabr 2016-cı il*

---

Yeni nəşrlər

# Müqəddəs ziyarətgah haqqında yeni kitab

***Muxtar respublikamızın zəngin tarixi və bu tarixin şahidləri olan çoxsaylı tarixi, dini, mədəni abidələrin mövcudluğu Naxçıvanda mədəni tanışlıq turizminin inkişafına təkan verən amillərdəndir. Muxtar respublikadakı ayrı-ayrı tarixi abidələr barədə məlumat verən kiçikhəcmli kitabçaların və broşürlərin nəşrinin xüsusi əhəmiyyəti vardır. Belə məlumat kitabçaları və broşürlər insanların bu abidələrlə bağlı qısa, lakin əsaslı məlumat almasına, eyni zamanda tariximizin kütləvi təbliğinə xidmət edə bilər. Danılmaz bir faktdır ki, informasiyanın bu qədər bolluğu şəraitində insanlar hər hansı ərazi və abidələrlə bağlı irihəcmli tədqiqat əsərlərinə nisbətən kiçikhəcmli kitablara və kitabçalara daha çox üstünlük verirlər.***




Bu mənada, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərlinin bu günlərdə çapdan çıxmış “Əshabi-Kəhf Ziyarətgahı” Dini Mədəni Abidə Kompleksi” adlı kitabı xüsusi əhəmiyyətə malikdir. AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə çapdan çıxan 72 səhifəlik kitabda Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən, Azərbaycanın müxtəlif bölgələrinin, hətta qonşu Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının əhalisi, buraya müxtəlif ölkələrdən gələn qonaqlar tərəfindən ziyarət edilən, adı “Qurani-Kərim”də xatırlanan Əshabi-Kəhf ziyarətgahından bəhs edilir. Kitabda orta əsr qaynaqlarına, tarixi və etnoqrafik faktlara, tədqiqatçıların fikirlərinə əsaslanaraq “Qurani-Kərim”in “əl-Kəhf” surəsində haqqında bəhs olunan Əshabi-Kəhfin Naxçıvan şəhərinin şərq tərəfində yerləşən müqəddəs yer – Əshabi-Kəhf olması fikri vurğulanır.

Kitabın ön sözündə müəllif muxtar respublika rəhbərinin yüksək diqqət və qayğısı ilə bölgədə tarixi abidələrin pasportlaşdırılması, qorunması, bərpası istiqamətində görülən işlərdən söz açır. Əshabi-Kəhf haqqında ümumi məlumat hissəsində dünyanın müxtəlif yerlərində (Balkan yarımadasında, İordaniyada, Skandinaviyada, İspaniyada, Əlcəzairdə, Misirdə, Suriyada, Əfqanıstanda, Türkiyədə, Doğu Türküstanda) Əshabi-Kəhf adlı müqəddəs yerlərin mövcud olduğuna toxunulmuş, İslam qaynaqlarında Əshabi-Kəhflə bağlı məlumatlara yer verilmişdir. Müəllifin bu addımı həm də elmi obyektivlik prinsiplərinə əsaslanmaqla daha inandırıcı xarakter daşıyır. Daha sonra kitabda oxuculara Naxçıvanda Əshabi-Kəhf haqqında yayılmış rəvayət təqdim edilir. Əshabi-Kəhfin, yəni mağara sahiblərinin kimliyi ilə bağlı hissə də həm elmi tədqiqatçılar, həm ilahiyyatçılar, həm də turistlər üçün xeyli maraqlı məlumatlarla zəngindir.

Əshabi-Kəhfin ziyarətçiləri üçün maraqlı olacaq digər bir hissə “Əshabi-Kəhfdə ziyarət edilən məqamlar”dır. Qeyd edilir ki, burada ən mühüm ziyarət obyekti ziyarətgahın məscidinə gedən yoldan, təxminən, 2 metr yüksəklikdə yerləşən, irihəcmli bütöv sal daşın şərqə baxan üzündə yaranmış oyuqmağara – “Yeddi kimsənə”dir. Əshabi-Kəhfdə ziyarət edilən digər müqəddəs yerlər sırasında Həzrəti Əli və onun atı Düldülün adı ilə bağlı olan məqam, ziyarətgahdakı məscid, məscidin yaxınlığındakı qara daş, məscidin şimal tərəfində, təxminən, 10 metr yüksəklikdə yerləşən “Damcıxana”, məsciddən şərq tərəfdə, təxminən, 15 metr yüksəklikdə yerləşən “Cənnət bağı”dır.

Kitab müəllifinin muxtar respublikanın, demək olar ki, bütün ərazisində və ətraf bölgələrdə yerləşən epiqrafik abidələrin öyrənilməsi istiqamətində fəaliyyəti nəticəsində indiyə qədər çoxsaylı faktoloji materialların üzə çıxarıldığı məlumdur. “Əshabi-Kəhfin epiqrafik abidələri” adlanan bölmədə ziyarətgah ərazisindəki məsciddə müsəlman epiqrafikasına aid üç kitabə üzərindəki mətnlər təqdim və təhlil edilmişdir.

Kitabda “Əshabi-Kəhf – Naxçıvan bağlılığına dair faktlar” adlanan bölmədə təqdim olunan dini və tarixi sübutlar “Qurani-Kərim”də haqqında bəhs olunan “Əshabi-Kəhf” mağarasının məhz Naxçıvandakı Əshabi-Kəhf olduğuna heç bir şübhə yeri qoymur. Müəllif Əbdürrəşid əl-Bakuvi, Əbubəkr ibn Xosrov əl-Ustad, Həmdullah Qəzvini, Əllamə Təbatəbai, Konstantin Smirnov və digər müəlliflərin fikirlərini təhlil etməklə, Əshabi-Kəhflə bağlı aparılan son tədqiqatlar zamanı üzə çıxan faktları qarşılaşdırmaqla bu nəticəyə gəlir. Fəxrəddin Səfərli Naxçıvan ərazisində bu gün də qalmaqda olan və “Əshabi-Kəhf” hadisəsi ilə səsləşən Dağ Yunus torpağı, Dağ Yunus çarxı, Dağ Yunus dağı, Nəhəcir-Nahacilus bağlılığı haqqında maraqlı məlumatlar vermişdir.

Təbii ki, Əshabi-Kəhfin indi ziyarətçilər və muxtar respublikamıza gələn qonaqlar üçün ən çox maraq doğuran məkanlardan biri olmasında burada aparılmış abadlıq-bərpa işləri xüsusi əhəmiyyət daşımışdır. Müəllif müstəqillik dövründə Əshabi-Kəhfdə bərpa işlərinin aparılmasının ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu qeyd etmiş, məhz ulu öndərimizin tapşırığı və himayəsi ilə 1998-ci ildə burada bərpa və abadlıq işlərinin görüldüyünü vurğulamışdır. Ümummilli liderimiz Heydər Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun diqqət və qayğısı ilə 2006-cı ildə “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksində genişmiqyaslı bərpa-abadlıq işləri aparılmışdır.

Kitabın nəticə hissəsində müəllifin gəldiyi nəticəni indiyə qədər bu abidə ilə bağlı aparılmış tədqiqatlara möhür hesab etmək olar. Gələnən nəticə belədir: “Əshabi-Kəhf” hadisəsi Azərbaycan əhalisinin İslamaqədərki dövrdə təktanrıçılıq dinində olduğunu təsdiq edən ən sanballı qaynaqdır.

Kitabda abidəyə aid fotoşəkillərin təqdim olunması onu geniş oxucu kütləsi üçün daha da maraqlı edir. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində nəşr edilən kitabın elmi redaktoru akademik İsmayıl Hacıyev, elmi məsləhətçisi AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadədir.

Elnur KƏLBİZADƏ

---

# Tələbələr “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini ziyarət ediblər



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamından irəli gələn vəzifələrin icrası məqsədilə Naxçıvan Dövlət Universitetinin Sosial idarəetmə və hüquq fakültəsinin Dövlət və bələdiyyə idarəetməsi, Turizm və otelçilik ixtisaslarının II kurs tələbələri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini ziyarət ediblər, tariximizi əks etdirən eksponatlarla tanış olublar.

Muzeyin bələdçisi Şahnaz Əliyeva tələbələrə kompleks haqqında məlumat verərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında” 5 iyun 2013-cü il tarixli Sərəncamı təkcə tariximizin qorunması və təbliğinə deyil, həm də gələcəkdə bir millət kimi bu torpaqların əzəli və əbədi sakinləri olduğumuzun elmi dəlillərlə sübutuna xidmət edən mühüm dövlət sənədidir. Naxçıvanqalanın bərpası, qalanın əvvəlki görkəminin özünə qaytarılması, burada “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması, ümumilikdə, Naxçıvanın tarixinin öyrənilməsi, tədqiqi və təbliği baxımından mühüm və tarixi addımdır.

Kompleksə tanışlıq zamanı burada nümayiş olunan eksponatlar haqqında məlumatlar əldə edən tələbələr Nuh Peyğəmbərin məzarüstü türbəsini də ziyarət ediblər.

Mina QASIMOVA

## Endokrinologiyanın aktual problemlərinə aid elmi-praktik konfrans



***Naxçıvan Muxtar Respublika Xəstəxanasında “Endokrinologiyanın aktual problemləri” mövzusunda elmi-praktik konfrans keçirilib.***

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov bildirib ki, səhiyyə sisteminin inkişafına dövlət qayğısının get-gedə artırılması, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yenidən qurulması digər sahələr kimi, endokrinologiyada da mühüm irəliləyişlərə şərait yaradıb. Əvvəllər fəaliyyət göstərən Endokrinoloji Dispanserin bazasında Naxçıvan Muxtar Respublika Xəstəxanasında Endokrinologiya şöbəsinin yaradılması səhiyyə islahatlarının tərkib hissələrindən biridir. Burada müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. Endokrinologiya şöbəsi tərəfindən şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, diabetin fəsadlarının profilaktikası məqsədilə tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Həkimlərin peşə bacarığının yüksəldilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Müasir müalicə metodlarının öyrənilməsi və tətbiqi üçün yüksəkixtisaslı mütəxəssislərin iş təcrübəsindən istifadə olunur. Bu gün inkişaf edən dünya səhiyyə sisteminin müasir nailiyyətlərinin öyrənilməsində, ondan faydalanmaqda elmi-praktik konfransların mühüm əhəmiyyət kəsb etdiyi nəzərə alınaraq bu işə daim diqqət yetirilir. Hər il Bakıdan gələn yüksəkixtisaslı həkimlər yerli həkimlərlə birgə bölgələrdə konsultativ söhbətlər, səhiyyə maarifi işi aparır, rayonlarda bu qəbildən olan xəstələrə baxış keçirir, onlara tibbi məsləhətlər verirlər.

Sonra Bakı şəhərində tibbi fəaliyyət göstərən endokrinoloji və metabolik xəstəliklər üzrə mütəxəssis, həkim Rövşən Həsənovun “Qalxanvarı vəz xəstəlikləri, diaqnostikası, müalicə taktikası” mövzusunda məruzəsi dinlənilib. Mütəxəssis şəkərli diabetin tipləri, risk faktorları, diaqnostikası, dərman vasitələrinin seçilməsi və müalicə işinin təşkilində müasir üsullar barədə məlumat verib. Bildirib ki, şəkərli diabet endokrin sistemin ən geniş yayılmış xəstəliklərindən biridir. Hər il qeydə alınan ölüm hallarının 5 faizi şəkərli diabet nəticəsində baş verir. Bu xəstəliklə mübarizə hazırda dünya səhiyyəsinin ən aktual məsələlərindən biridir.

Bildirilib ki, son illər ölkəmizdə onların müalicəsi, şəkərli diabetin profilaktikası istiqamətində mühüm tədbirlər görülüb. “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” Qanun, 2006-2010-cu və 2011-2015-ci illəri əhatə edən “Şəkərli diabet üzrə Dövlət Proqramı” qəbul edilib.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim-endokrinoloqu Gülşən Həsənquliyeva tədbir iştirakçılarına məlumat verib ki, muxtar respublikamızda görülmüş tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünənəzarət vasitələri ilə təmin olunması işi xeyli yaxşılaşıb. 2007-ci ildə verilmiş qlükometr aparatları və test lövhələrindən ibarət özünənəzarət vasitələri yeniləri ilə əvəz olunub. Bu aparatlar Naxçıvan Muxtar Respublika Xəstəxanasının Endokrinologiya şöbəsində qeydiyyatda duran hər bir xəstənin özünə ödənişsiz olaraq təqdim edilir. Eyni zamanda aparatla qanda şəkərin miqdarının təyin edilməsi qaydaları izah olunur.

Müalicə-diaqnostika işinin yaxşılaşdırılması şəkərli diabet xəstələrinin aşkarlanması üçün də şərait yaradıb. 2011-ci ildən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin laboratoriyasında şəkərli diabet xəstələri üçün qlükozalaşmış hemoqlobinin təyininin tətbiq olunması həmin xəstələrin qanında şəkərin miqdarına daha dəqiq nəzarət etməklə diabet əleyhinə dərman preparatlarının dozasının müəyyən edilməsini daha da asanlaşdırıb. Endokrinologiya şöbəsi tərəfindən şəkərli diabetin diaqnostikası və müalicəsi üzrə klinik protokolların tətbiqi, xəstəliyin profilaktikasına dair maarifləndirici söhbətlərin aparılması, diabetin fəsadlarının profilaktikası məqsədilə tibb müəssisələrində təlim məktəbləri şəbəkəsinin gücləndirilməsi üzrə tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Bu məqsədlə artıq beş ildən çoxdur ki, diabet məktəblərinin təlim, məşğələ və treninqləri təşkil olunur.

***Muxtar respublikanın tibb müəssisələrində çalışan endokrinoloq, terapevt, pediatr, nevroloq, cərrah, ginekoloqların, rezident və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsi və Naxçıvan Tibb Kolleci tələbələrinin iştirak etdiyi konfransda müzakirələr aparılıb, suallar cavablandırılıb.***

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Sağlamlıq imkanları məhdud uşaqların bacarıq və qabiliyyətləri inkişaf etdirilir





***Muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların təhsil alması və cəmiyyətə inteqrasiyası, qabiliyyət və bacarıqlarının inkişaf etdirilib düzgün formalaşdırılması məqsədilə mühüm tədbirlər həyata keçirilir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilən və icrası uğurla başa çatdırılan “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı” bu istiqamətdə görülən işlərin sistemli xarakter almasına, distant təhsilin tətbiqinə və bu sahədə müvafiq pedaqoji kadr hazırlığının təkmilləşdirilməsinə, uşaqların asudə vaxtlarının səmərəli təşkilinə, onların kollektivçilik ruhunun aşılanmasına geniş imkanlar açıb. Dövlət proqramının icrası nəticəsində sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi sahəsində mühüm nəticələr qazanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq olunan “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” bu qəbildən olan uşaqlara dövlət qayğısının daha bir ifadəsidir. Proqramda bir sıra vəzifələrin həyata keçirilməsi nəzərdə tutulub. Həmin vəzifələr sırasında sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif yarış və müsabiqələrin keçirilməsi, onların asudə vaxtlarının səmərəli təşkili də var. Bu, onların əqli və fiziki inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Buna görə də bu kateqoriyadan olan uşaqlar arasında kinekt və intellektual oyunlar, şahmat, dama, darts, stolüstü tennis, futzal, yüngül atletika və xalq uşaq oyunlarından ibarət əyləncəli yarışlar, görmə qabiliyyəti məhdud şəxslər arasında brayl yazı və oxu müsabiqələri keçirilir.

Bu diqqəti Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil olunmuş rəsm və aplikasiya dərnəklərində də gördük. Dərnəklərə Fizzə Hümbətova və Səkinə Qarayeva rəhbərlik edir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dərnəyə sağlamlıq imkanları məhdud uşaqlar cəlb edilib. Aplikasiya dərnəyinin rəhbəri Fizzə müəllimə ilə söhbət zamanı öyrəndik ki, belə uşaqlar özlərini digər uşaqlardan heç də kənarda hiss etmir və bacarıqlarını üzə çıxarmaqdan çəkinmirlər. Dərnəkdə uşaqlar rəngli muncuqlardan, pilək, qaş, yarpaq və güllərdən əl işləri hazırlayırlar. Bunların içərisində Rza Hümbətovun piləklə hazırladığı “İlan tablosu”, digər uşaq və gənclərin – Özgan Allahverdiyevin piləklə işlədiyi “Bir millət, iki dövlət”, pilək və muncuqla hazırladığı “Quşların rəqsi”, Səranə İbrahimovanın “Aşıqlar”, “Meşədə dovşan”, Novruz Allahverdiyevin səhərin açılmasının təsvir etdiyi, piləklərlə hazırladığı “Xoruz” və digər əl işləri göz oxşayır.

Həmin uşaqlarla söhbət zamanı hiss etmək çətin deyildi ki, onlar bu dərnəyə cəlb olunmaqlarından xeyli razıdırlar, burada bir-birlərinə qaynayıb-qarışır, özlərinə yeni dostlar tapırlar. Düzəltdikləri əl işləri barədə bir-birlərinin fikirlərini öyrənirlər.

Dərnək rəhbəri bildirdi ki, uşaqların əl işlərini mərkəzdə sərgiləməklə kifayətlənmirlər. Onların müxtəlif tədbirlərə qatılmasına çalışırlar.

Mərkəzdə “Naxçıvanım mənim” mövzusunda sağlamlıq imkanları məhdud uşaqlar arasında rəsm, əl işləri və musiqi müsabiqələrinin keçirilməsi də bu mənada yaddaqalan tədbirlər olub.

**Telli MUSTAFAYEVA**

***Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində gənclərin vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədilə vətənpərvərlik mövzusunda olan “Döyüş atı” adlı bədii film nümayiş etdirilib.***

## Tələbələr və kursantlar üçün film nümayiş etdirilib

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələrindən və Heydər Əliyev adına Hərbi Liseyin kursantlarından 410 nəfər iştirak edib.

Film ingilis yazıçısı Maykl Morpurqonun Birinci Dünya müharibəsindən bəhs edən əsəri əsasında lentə alınıb. Film vətənpərvərlik motivasiyaları üzərində çəkilib.

## Naxçıvanlı boksçu beynəlxalq turnirdə bürünc medal qazanıb

***Məşhur boksçular – Kliçko qardaşlarının mükafatı uğrunda Ukraynanın Berdiçev şəhərində keçirilən gənc boksçular arasında beynəlxalq turnirə yekun vurulub.***



Ənənəvi olaraq hər il təşkil olunan turnirdə Azərbaycanın gənc boksçulardan ibarət yığma komandası da iştirak edib. Yığmamızın heyətində Ukraynaya Naxçıvan boks məktəbinin yetirməsi Sərxan Əliyev də yollanıb. 12 idmançı ilə beynəlxalq turnirdə iştirak edən Azərbaycan yığması vətənə 4 medalla qayıdıb.

Həmyerlimiz Sərxan Əliyev turnirdə 60 kiloqram çəki dərəcəsində mübarizə aparıb. İlk görüşündə Ukraynanı təmsil edən erməni boksçusu Aleksandr Abramyanı məğlub edən idmançımız 1/4 finala yüksəlib. Bu mərhələdə onun rəqibi erməni idmançısı Harek Oqanesyan olub. Sərxan Əliyev daha üstün döyüşərək rinqi qalib kimi tərk edib və yarımfinala yüksəlib. Finala gedən yolda idmançımız Finlandiya təmsilçisi Nonali Assemeyə məğlub olaraq turniri üçüncü pillədə başa vurub.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunub.

Qeyd edək ki, turnirdə, ümumilikdə, 17 ölkənin 127 boksçusu mübarizə aparıb.

## Federasiya məktəblərdə seminarlar təşkil edib

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının təşkilatçılığı ilə Naxçıvan şəhər 1, 7 və 10 nömrəli tam orta məktəblərdə seminarlar keçirilib. Bakıdan dəvət olunmuş məşqçilər Fərid Tağızadə və Cavid Məmmədovun iştirak etdikləri seminarda şagirdlərə taekvando və MMA idman növləri barədə geniş məlumat verilib. Seminardan öncə çıxış edən Şərq Döyüşü Sənəti Federasiyasının sədr müavini Cavanşir Salayev şagirdləri zərərli vərdişlərdən uzaq tutmaq, onları idmana cəlb etmək və bu növlərin təbliği yönündə hansı işlərin görüldüyü barədə danışıb. Daha sonra məşqçilər şagirdlərin suallarını cavablandırıblar.

Qeyd edək ki, üç məktəbdə keçirilən seminarda, ümumilikdə, 110 şagird iştirak edib.

## Futbol üzrə yoldaşlıq görüşü keçirilib

“Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında Vayxır kənd komandası ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi “Darıdağ” Futbol Klubunun komandası arasında yeniyetmələrdən ibarət futbol üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Şəhər və Babək Rayon Gənclər və İdman idarələrinin birgə təşkil etdiyi görüş Babək rayon Vayxır kənd stadionunda baş tutub. Görüşdən öncə çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov komandalara uğurlar arzulayıb.

Daha üstün oyun sərgiləyən “Darıdağ” komandası meydanı 7:0 hesablı qələbə ilə tərk edib.

Sonda qalib komanda təşkilatçıların diplomları ilə mükafatlandırılıb.

**Ceyhun MƏMMƏDOV**

***Bildiriş***

“Kənaninşaat” Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətini dayandırdığından ləğv olunur.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 711